Ədəbiyyat qəzeti



13 mart / 2021




# "Gözüm o gözlərdə qaldı"

Bu kitab Azərbaycanın Xalq şairi Nəriman Həsənzadənin dünyadan bivaxt köçmüş ömür-gün yoldaşı Sara xanımın adına ünvanlanıb və onunla bağlı şeirləri toplanıb. Şairin 90 illik yubileyi ərəfəsində oxucuları ilə görüşə gələcək bu dərgidə müəllifin "Gözüm o gözlərdə qaldı" poeması, professor Yaşar Qasımbəylinin "525-ci qəzet"də çap olunmuş "Sara xanım və Nəriman dastanı" və tanınmış jurnalist Xəyalə Muradlının Azərbaycan qəzetində işıq üzü görmüş "Ömür səhifələri: Milyonlar içində tənha şair" publisistik yazıları da yer alıb.